## "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

~~"Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin birinci hissəsinin 2-ci bəndində və 18-ci maddəsində nəzərdə tutulan "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;~~ [1]

həmin Qanundan irəli gələn digər məsələləri öz səlahiyyəti hüdudlarında həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. «Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini aşağıdakı dövlət orqanları həyata keçirirlər:

2.1.1. həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin 1-5-ci bəndlərində və ikinci hissəsində nəzərdə tutulan hallarda — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

2.1.2. həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin 6-cı, 8-ci və 9-cu bəndlərində nəzərdə tutulan hallarda — Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti;[2]

2.1.3. həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin 7-ci bəndində nəzərdə tutulan hallarda:

2.1.3.1. cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən şəxslərə münasibətdə — təhqiqat orqanları, ibtidai istintaq orqanları və ya həmin orqanların tapşırığı ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

2.1.3.2. məhkum olunmuş şəxslərə münasibətdə — Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi;

2.1.3.3. inzibati qaydada həbs edilmiş şəxslərə münasibətdə — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

~~2.1.4. həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin 8-ci bəndində nəzərdə tutulan hallarda — öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti;~~ [3]

2.2. həmin Qanunun 1-ci maddəsinin 1-ci bəndində, 10-cu maddəsinin ikinci hissəsində (birinci halda) və üçüncü hissəsinin 3-cü bəndində, 11-ci maddəsinin ikinci və üçüncü hissələrində, 12-ci maddəsinin birinci abzasında və 17-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini bu Fərmanın 2.1-ci bəndində göstərilən dövlət orqanları öz səlahiyyətləri daxilində həyata keçirirlər;

2.3. həmin Qanunun 9-cu maddəsinin ikinci hissəsində, 10-cu maddəsinin ikinci hissəsində (ikinci halda), 13-cü maddəsinin ikinci hissəsində, 14-cü maddəsinin birinci

hissəsində (hər üç halda) və ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.[4]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 15 iyul 2000-ci il
№ 374

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 13 aprel 2010-cu il tarixli **248** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 15 aprel 2010-cu il, № 79; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 288)**
2. 11 sentyabr 2014-cü il tarixli **272** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 13 sentyabr 2014-cü il, № 199)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 13 aprel 2010-cu il tarixli **248** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 15 aprel 2010-cu il, № 79; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 288)** ilə 1-ci bəndin dördüncü abzası çıxarılmışdır və beşinci abzas dördüncü abzas hesab edilmişdir.

[2] 11 sentyabr 2014-cü il tarixli **272** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 13 sentyabr 2014-cü il, № 199)** ilə 2.1.2-ci yarımbənddə "**6-cı**" sözündən sonra "**, 8-ci**" sözü əlavə edilmişdir.

[3] 11 sentyabr 2014-cü il tarixli **272** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 13 sentyabr 2014-cü il, № 199)** ilə 2.1.4-cü yarımbənddə ləğv edilmişdir.

[4] 13 aprel 2010-cu il tarixli **248** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 15 aprel 2010-cu il, № 79; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 288)** ilə 2-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki:~~

~~"Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin ikinci hissəsində, 10-cu maddəsinin birinci hissəsinin 4-cü bəndində və ikinci hissəsində, 11-ci maddəsinin ikinci hissəsində, 12-ci maddəsinin birinci abzasında və 3-cü bəndində, 13-cü maddəsinin ikinci hissəsində, 14-cü maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;~~

~~həmin Qanunun 10-cu maddəsinin birinci hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini təhqiqat orqanları, ibtidai istintaq orqanları və ya həmin orqanların tapşırığı ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;~~

~~həmin Qanunun 10-cu maddəsinin birinci hissəsinin 3-cü bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;~~

~~həmin Qanunun 1-ci maddəsinin 1-ci bəndində və 10-cu maddəsinin üçüncü hissəsinin 3-cü bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərin bu Fərmanın 2-ci bəndinin ikinci, üçüncü və dördüncü abzaslarında göstərilən dövlət orqanları öz səlahiyyəti hüdudlarında həyata keçirirlər.~~